# Keçmişdən gələn yaddaş karvanı



Xalçalar qədimdən Azərbaycan mədəniyyətinin fəxri olub. Ənənələri əsrlər boyu formalaşan və toplanan dekorativ tətbiqi-incəsənətin bir növüdür. Buna sübut olaraq, muzeylərimizdə mövcud olan xalça və xalça məmulatlarının kolleksiyalarıdır. Ən kiçik muzeyimizin ekspozisiyasında belə xalça və ya xalça məmulatı vardır. Bərpa Mərkəzinin ümdə məsələlərindən biri xalqımızın bu nadir yüksək yaradıcılıq nümunələrini qorumaqdır. Bir çox Azərbaycan muzeylərinin kolleksiyalarından, fondlarından, ekspozisiyalarından Mərkəzə bərpa və konservasiya olunması üçün qədim xalça və xalça məmulatları daxil olur. Xurcunlar və məfrəşlər, heybələr və çuvallar, pərdələr və çullar, yəhər üstlər və süfrələr, palazlar və kilimlər və s. Xalça məmulatları işlənmə üslubuna görə iki qrupa bölünür – xovlu və xovsuz. Amma məsələn – xurcunlar, məfrəşlər, heybələr – qarışıq üslubda toxunur.




Eksponatlar Mərkəzə müxtəlif zədələrlə gəlir – əsasın partlaqları ilə, fraqment itkiləri ilə, yanmış kənarlarla və s. Bərpa işi eksponatın (atribusiyasından) tarixi haqqında məlumat toplanmasından, zədələrin dəqiq öyrənilməsindən, bərpa işinin həcminin təyinindən, laborator tədqiqatlarından sonra başlayır.

Ümumiyyətlə bərpa işinin prosesi bir sıra ardıcıl əməliyyatlardan ibarətdir. Hər bir eksponat birinci növbədə təmizlənir və dezinfeksiya olunur. Prosesin əsas mərhələsini isə itirilmiş fraqmentlərin bərpası təşkil edir. Bunun üçün hər bir məmulata uyğun təbii boyalarla rənglənmiş yun saplar seçilir, xalçanın əsası yenidən çəkilir. Eksponatda salamat qalmış ornamentlərin oxşarı millimetrə kağız üzərinə köçürülür və düyün-düyünün ardınca itirilmiş naxışlar bərpa olunur. Naxışların rəsmi və fraqmentləri də iki üsulla bərpa olunur.

Birinci üsul – eksponat öz əsli üslubunda bərpa olunur. Xalça məmulatları – palaz, cecim, kilim, verni, zili, şəddə, sumax və s. üslublarında toxunur. Bərpaçı eksponatın toxunma üsulu bunu dəqiq ayırd etməlidir ki, öz işini mükəmməl görsün. Bu üsuldan əşyanın əsası möhkəm olduğu zaman istifadə edilir. İkinci üsul isə ornamentin təqlid yolu ilə bərpa olunur. Bu üsuldan çox köhnəlmiş və itkilərin miqdarı həddindən artıq olduqda istifadə edilir.

Bundan əlavə, əşyalar muzeylərin sifarişi ilə konservasiya olunmasıdır. Konservasiya üsulunda eksponatlara kətandan və yaxud eksponata uyğun olan parçadan əsas verilir. Və xüsusi tikişlərlə eksponat əsasa bərkidilir. Son prosesdə eksponat ütülənir və preslənir – bununla deformasiyalar aradan qaldırılır.

Yuxarıda göstərilən bərpa proseslərinin nəticələri o qədər də tez zamanda alınmır. Müşahidədə sadə görünən bir işə zədələrin ağırlığı dərəcəsindən asılı olaraq altı aydan iki ilə qədər vaxt gedir. Bəzən santı – santı eksponat bərpa olunur.

Bərpaçı sənəti əməksevərlik və səbir tələb edir. Hər insan bu sənətin sahibi ola bilməz. Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzində çalışan mütəxəssislər, həqiqətən də peşələrinin vurğunlarıdır.

Yüksək dərəcəli xalça üzrə bərpaçı-rəssamlar – Sima Quliyeva, Gülminə Əhmədova və Xatirə Əmirova məhz belə insanlardandır. Hər üçünün iyirmi ildən artıq bərpaçılıq sənətində iş təcrübəsi var. Mərkəzin tətbiqi-incəsənət şöbəsinin müdiri Ruhəngiz Əliyevanın rəhbərliyi altında bu peşəkarlar xalqımızın yüzlərlə qədim sənət nümunələrini həyata qaytarıblar. Maddi cəhətdən olmasa da, mənəvi cəhətdən sənət bu fədakar insanları mükafatlandırır. Parlaq, canlı boyalarla yaradılan, nənələrimizin əllərinin istiliyini illər boyu özündə saxlayıb, əks etdirən gözəl sənət əsərləri bərpaçıların zəhməti ilə gözləri önündə sanki yenidən doğulur.

Xalçalarımızı yaşadarkən onlar keçmişimizdən gələn yaddaş karvanını qoruyurlar.

**Ülviyyə ŞİRİNOVA,**
**elmi-tədqiqat şöbəsinin müdiri**